***Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu… Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu.***

***Ulu öndər Heydər Əliyevin 1995-ci ilin oktyabrında AMEA - da ana dilimizlə bağlı keçirilən ümumrespublika müzakirəsindəki çıxışından.***



# Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsindən 44 il keçir

***Ümummilli lider Heydər Əliyev ötən əsrin doxsanıncı illərindəki çıxış və nitqlərinin hamısında dövlət müstəqilliyimizin əbədiləşdirilməsi, milli tariximizin bütün səhifələrinə ehtiramla yanaşılması, eləcə də ana dilimizin qorunub saxlanılması zərurətini dəfələrlə xatırladırdı. Onun özünün siyasi fəaliyyəti isə dövlətçiliyimizə, tariximizə və dilimizə sədaqət rəmzi, xidmət nümunəsi idi.***

Heydər Əliyev xatırladırdı ki, hər bir millətin dili onun üçün çox əzizdir: "Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər".

Elə ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi təsbit edildiyi 1978-ci il Konstitusiyamız barədə mülahizələrimi qələmə alarkən də ulu öndərin məhz yazıçı, şair və digər yaradıcı ziyalılarımıza müraciətini yada salmaq istəyirəm. Belə ki, 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyasının layihəsi hazırlanarkən, respublikamızın o zamankı rəhbəri Heydər Əliyev, şəxsən özü yaradıcı ittifaqlara xəbər göndərmişdi ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Nəticədə Konstitusiyada "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" – maddəsi təsdiq olunmuşdu.

Xüsusilə vurğulanmalı məqam ondan ibarət idi ki, ulu öndərin bu istəyi həmin dövr üçün olduqca cəsarətli addım idi. Çünki bu addımın hansısa başqa respublikada deyil, məhz türkdilli ölkədə atılması sadəcə risk idi. Heydər Əliyev bu addımı atmış və məqsədinə nail olmuşdu.

Bu günlər həmin qətiyyətli qərarın qəbul edilməsindən 44 il keçir. Ancaq milli dövlətçilik tariximizdə Azərbaycan dilinin dövlət dili kimi ilk dəfə qəbul edilməsindən artıq 104 ilə yaxın müddət ötür. Belə ki, dil siyasəti Azərbaycan Xalq Cümhuriyyəti dövründə də diqqət yetirilən əsas sahələrdən olub. AXC hökumətinin 1918-ci il 27 iyun tarixli qərarı ilə, o zaman türk dili adlanan Azərbaycan dili dövlət dili elan edilmişdi. Yəni, ulu öndərin "Bizim gənc müstəqil dövlətimiz Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" – deyimi dil məsələsində də öz təsdiqini tapır.

Xatırladaq ki, AXC öz dil siyasətini həyata keçirmək üçün təhsilin mühüm sahə olduğunu ön plana çəkərək, 1918-ci il avqustun 28-də ibtidai və orta təhsil müəssisələrində təhsilin ana dilində aparılması haqqında qərar vermişdi. Həmin islahatların məntiqi davamı kimi AXC-nin Hərbi naziri Səməd bəy Mehmandarov 1918-ci il dekabrın 27-də ordu dilinin də Azərbaycan-türk dili olduğu barədə əmr vermişdi.

Azərbaycanda sovet hakimiyyəti yaradıldıqdan on illər sonra – 1956-cı ildə bu istiqamətdə addımlar atmağa cəhd edilsə də, heç nə alınmamışdı. Nəhayət, respublikanın 1978-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması barədə maddə daxil edilmişdi. Çünki o zaman artıq ölkə rəhbəri Heydər Əliyev kimi siyasət dahisi idi. Tarixçi və politoloqlar həmin Konstitusiyanı məhz Heydər Əliyev Konstitusiyası adlandırırdılar.

Prezident Kitabxanasının elektron resurslarında göstərilir ki, 1978-ci ildə Azərbaycan SSR Ali Sovetinin VII sessiyasında ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Nəticədə bu məsələ Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Bununla da Azərbaycan dili dövlət dili statusunu aldı.

Xalqımız ulu öndərin dövlətçilik və idarəçilik sahəsindəki möhtəşəm uğurlarına 1993-cü ilin yayından sonra da şahidlik etmişdir. Çünki Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıtması ilə bütün sahələr kimi dövlət dilimizin – yəni ana dilimizin də qorunub saxlanılmasına, inkişaf etdirilməsinə mühüm zəmin yaranmışdı. Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş ilk milli Konstitusiyasında da Azərbaycan dili dövlət dili kimi layiqli yerini tutub. Məlum olduğu kimi, bu Əsas Qanunumuza da Heydər Əliyev Konstitusiyası deyilir.

Həmin Konstitusiyanın 21-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir və Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

Ulu öndərin ölkəmizə ikinci dəfə rəhbərlik etdiyi illərdə dilimizin inkişafına xüsusi önəm verilib, bu istiqamətdə müxtəlif taleyüklü fərman və sərəncamlar qəbul olunub. Ana dilinə hər zaman həssaslıqla yanaşan, dilimizin dərin bilicisi olan Heydər Əliyev deyirdi: "Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Bizim çox gözəl, zəngin dilimiz var".

Rəsmi sənədlərdə qeyd edilir ki, Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalayıb. Fərmanda dilimizin öz tarixi inkişafı boyunca əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində yaranmış problemlər geniş təhlil edilib, həmin problemlərin həlli yolları göstərilib. Dahi lider Heydər Əliyevin "Azərbaycan əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də ana dili məsələsini daim diqqətdə saxlayır. Belə ki, Azərbaycan dilinin perspektivlərinin müəyyənləşdirilməsi və dilçiliyin əsaslı inkişafı istiqamətində həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin hakimiyyəti dövründə də davam etdirilir. Dövlət başçısı 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən dərslik, elmi əsər və lüğətlərin, bədii ədəbiyyat nümunələrinin latın qrafikalı yeni Azərbaycan əlifbası ilə çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi baxımından əhəmiyyətli olub.

Eləcə də, ölkə Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsi istiqamətində mühüm sənədlərdir.

Yəni, bu gün Azərbaycan dili müstəqil bir dövlətin dilidir. Ana dilimizin inkişafı və zənginləşdirilməsi dövlət başçımızın diqqət mərkəzində saxladığı mühüm məsələlərdəndir. Hər bir azərbaycanlı da, öz növbəsində, vətəndaş borcunu yerinə yetirərək, xalqımızın ən böyük mənəvi sərvəti olan ana dilinə qayğı göstərməli, onun qorunması və inkişafı üçün əlindən gələni etməlidir. Yalnız bu yolla dilimizi yaşada bilərik.

Sonda xatırladaq ki, ulu öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanın suveren hüquqlarının pozulmasına yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. Tarixi sənədlərdə oxuyuruq ki, SSRİ-nin 1977-ci ilin oktyabrında qəbul olunmuş Konstitusiyası hazırlanarkən ermənilərin antitürk, antiAzərbaycan cəhdləri artmışdı. Yalnız Heydər Əliyevin SSRİ rəhbərləri qarşısında qoyduğu qəti tələblər nəticəsində o vaxt Dağlıq Qarabağın statusu məsələsinə baxılmadı. Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən Konstitusiya Komissiyasının hazırladığı və 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR-nin yeni Konstitusiyası mövcud olan məhdud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən ana dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Azərbaycan dili respublikada dövlət dili statusu aldı.

Fəxrlə yada salırıq ki, ümummilli liderimiz Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi idi. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.

Mütəxəssislər indi də ötən əsrin həmin illəri barədə qələmə aldıqları yazılarda qeyd edirlər ki, ulu öndərin "Qoy ədalət zəfər çalsın!" – tezisi təkcə azərbaycanlıların deyil, o vaxtkı İttifaqa daxil olan xalqların hamısının dilində şüara çevrilmişdi.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***